AZERBAIJAN
# Olimpiya dünyası
www.olimpiyadunyasi.com
www.olimpnews.az
Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti
№ 17 (1519), 7 - 13 iyun 2022-ci il
Qəzet 2001-ci ildən çıxır.

## MOK-un 30 illiyi münasibəti ilə keçirilən qılıncoynatma yarışına yekun vurulub




Milli Olimpiya Komitəsinin 30 illiyi münasibəti ilə keçirilən qılıncoynatma üzrə Azərbaycan çempionatına yekun vurulub. Azərbaycan Qılıncoynatma Federasiyasının mətbuat xidmətindən verilən məlumata görə, Memarlıq və İnşaat Universitetinin idman zalında təşkil edilən yarışın son günündə şpaqa növü üzrə qaliblər müəyyənləşib. Yarış Gənclər və İdman Nazirliyi və Azərbaycan Qılıncoynatma Federasiyasının birgə təşkilatçılığı ilə keçirilib. Kişilər arasında qalib adını Ruslan Həsənov, qadınlar arasında isə Azərin İdriszadə qazanıb. Çempionatın qalibləri və mükafatçıları diplom və medallarla təltif olunublar.

Diplom və medalları mükafatçılara federasiyanın vitse-prezidenti Fərhad Kasimov, baş katib Vasif Məmmədov və milli komandanın baş məşqçisi Çingiz Mustafayev təqdim edib.




## Millimiz Avropa çempionatının əsas mərhələsinə vəsiqə qazandı

Basketbolun 3x3 növü üzrə kişilərdən ibarət milli komandamız Avropa çempionatının əsas mərhələsinə vəsiqə qazanıb. Kiprin Limassol şəhərində keçirilən Avropa çempionatının seçmə mərhələsində B qrupunda mübarizəyə başlayan millimiz Kipr, Lüksemburq və Andorra komandaları ilə qarşılaşıb. İlk görüşdə Kipr basketbolçuları ilə qarşılaşan yığmamız rəqibinə 19-11 hesabı ilə qalib gəlib. İkinci qarşılaşmada komandamız Lüksemburq yığması ilə üz-üzə gəlib və oyundan 16-10 hesablı qalibiyyətlə ayrılıb. Qrupun sonuncu oyununda millimiz Andorra basketbolçuları ilə görüşüb və rəqibinə 21-13 hesabı ilə qalib gəlib.

Qrupu ilk pillədə tamamlayan milli komandamız turnirin yarımfinal mərhələsinə vəsiqə qazanıb.

Komandamız seçmə mərhələnin yarımfinal oyununda Lüksemburq basketbolçuları ilə qarşılaşıb. Yığmamız oyundan 15-13 hesablı qələbə ilə ayrılıb və adını turnirin finalına yazdırıb. Finalda millimiz İrlandiya komandası ilə qarşılaşıb və meydandan 20-16 hesablı qələbə ilə ayrılıb. Bununla da, yığma komandamız sentyabrın 9-11-də Avstriyanın Qrats şəhərində təşkil olunacaq Avropa çempionatının final mərhələsinə vəsiqə qazanıb.

Qeyd edək ki, millimiz basketbolun 3x3 növü üzrə 2014-cü ildən sonra ikinci dəfə Avropa çempionatının əsas mərhələsinə yüksəlib.

### Anons




*Formula 1 Azərbaycan Qran-Prisinə 3 gün qalır*

Səh. 3

### *Paytaxtımız dünya kubokuna ev sahibliyi edir*

Səh. 4

### Qadın güləşçilərimiz reytinq turnirində dörd medala sahib çıxdılar

Səh. 5

### Vətən müharibəsi şəhidinin xatirəsinə idman yarışı keçirilib

Səh. 6

Azərbaycan Premyer Liqası

### *“Kəpəz” və “Turan-Tovuz” Premyer Liqaya qayıdır*

Səh. 7

## *Monteneqrodakı beynəlxalq turnir altı medalla yadda qaldı*

Monteneqronın Budva şəhərində bədii gimnastika üzrə “Montenegro Wild Beauty Cup 2022” beynəlxalq turniri keçirilib. Monteneqro Gimnastika Federasiyası və Budva Gimnastika klubu tərəfindən təşkil olunmuş yarışda uşaqlar, yeniyetmələr və böyüklər kateqoriyası üzrə 10 ölkəni təmsil edən 113 gimnast iştirak edib. İOEUG Gimnastika Məktəbinin gimnastları yarışda müvəffəqiyyətlə çıxış edərək altı medal qazanıblar.

Fərdi hərəkətlərdə iştirak edən gimnastlarımız Amina Novruzova, Dərya Məmmədova, Zəhra Həsənzadə və Səidə Əliyeva qızıl, Aylin Ocaqi topla hərəkətlərdə qızıl, çoxnövçülükdə isə bürünc medal qazanıb. Ən kiçik yaş kateqoriyasında çıxış edən Lalə Novruzova isə beşinci yerdə qərarlaşıb.

### UEFA Millətlər Liqası

*7 iyun*

**A: 3-cü qrup**

Saat: 22:45. Almaniya - İngiltərə
Saat: 22:45. İtaliya- Macarıstan

**B: 3-cü qrup**

Saat: 20:00. Finlandiya - Monteneqro
Saat: 22:45. Bosniya və Hers. - Rumıniya

**C: 1-ci qrup**

Saat: 22:45. Farer adaları - Lüksemburq
Saat: 22:45. Litva - Türkiyə



*İdman dünyasındakı maraqlı və operativ xəbərləri gündəlik*
**olimpiyadunyasi.com** *onlayn qəzetindən oxuyun*



# “Gimnastika hamı üçün”

İyunun 5-də Heydər Əliyev Mərkəzinin qarşısında “İdman hamı üçün” layihəsi çərçivəsində “Gimnastika hamı üçün” tədbiri keçirilib. Tədbir ərazisinə giriş sərbəst olub. Tədbirdə müxtəlif musiqili-nümunəvi çıxışlar təqdim edilib. İstənilən yaş kateqoriyasından olan insanlar gimnastika mütəxəssislərinin rəhbərliyi altında keçirilən proqrama kütləvi şəkildə qoşularaq isinmə, gimnastika, rəqs hərəkətlərini yerinə yetirib və flaşmobda iştirak ediblər.



Əyləncəli idman tədbirinin təşkilində məqsəd kütlə arasında gimnastika idman növünün təbliği, idmana marağın artırılması, sağlam həyat tərzinə çağırış, asudə vaxtın səmərəli təşkilidir.

## Velosiped

### *Təmsilçimiz “Tour of Albania” yarışında ikinci oldu*

Beynəlxalq Velosipedçilər İttifaqının (UCI) 2.2 kateqoriyalı “Tour of Albania” yarışının sonuncu - 5-ci




mərhələsi başa çatıb. Azərbaycanın elit/U-23 yığma komandasının kapitanı Elçin Əsədov 109 kilometrlik məsafədə yarışda uğurlu nəticə göstərərək mərhələni ikinci yerdə tamamlayıb və 3 reytinq xalı əldə edib.

Birinci yerdə Albaniya yığmasının üzvü Ylber Sefa, üçüncü yerdə isə Xorvatiyanın “Meridiana Kamen Team” komandasının üzvü Antonio Barak qərarlaşıb. E.Əsədov bu nəticə ilə ümumi təsnifatda 5-ci pillədə yer alıb və bununla da ölkə reytinqimizə daha 15 xal qazandırıb. Millimizin kapitanı, həmçinin ən yaxşı sprinterlərin mübarizəsində 77 xalla 3-cü olub.

Qeyd edək ki, E.Əsədov yarışın birinci, ikinci və üçüncü mərhələlərini ilk onluqda tamamlayıb.

Sonuncu mərhələdə finiş xəttini 12-ci keçən yığma komandamızın digər üzvü Musa Mikayılzadə ümumi təsnifatda 12-ci nəticə göstərib.

Xatırladaq ki, mötəbər yarışda ölkəmizi baş məşqçi Asif Həsənovun rəhbərliyi altında elit/U-23 yığma komandamızın üzvləri Elçin Əsədov, Elgün Əlizadə, Musa Mikayılzadə, Əli Qurbanov, Şahin Eyvazov və Yusif İsmayılov təmsil edib.

### *Azərbaycan Velosiped Federasiyası rəsm müsabiqəsi elan edir*

Azərbaycan Velosiped Federasiyası (AVF) son illər fəaliyyətini günün tələbləri səviyyəsində qurub. Yaranmasından qısa müddət ötməsinə baxmayaraq, federasiyanın gördüyü işlər, əldə etdiyi nailiyyətlər və həyata keçirdiyi çoxsaylı layihələr artıq bəhrəsini verir. Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin idmana diqqət və qayğısının nəticəsi olaraq AVF-nin üzərinə ölkəmizdə velosiped idmanının inkişaf etdirilməsi və velosipedçi idmançılarımızın Olimpiadaya, eləcə də digər mötəbər beynəlxalq yarışlara hazırlaşdırılması kimi öhdəliklər qoyulub. Bu məqsədlə, AVF yarandığı ilk gündən respublikada velosiped idmanı ilə məşğul olan məktəb və klubları dəstəkləyib, belə idman məktəblərinin regionlarda da açılmasını qarşıya məqsəd qoyub.

Hazırda velosiped idmanı Respublika Olimpiya Ehtiyatları İxtisaslaşdırılmış Uşaq-Gənclər Velosiped İdmanı Məktəbində, Sumqayıt Velosiped İdman Klubunda, 7 saylı İdman Olimpiya Məktəbində, “Sərhədçi” İdman Olimpiya Mərkəzində, İsmayıllı və Şamaxı rayonlarında inkişaf etdirilir. AVF ölkəmizdə fəaliyyət göstərən velosiped idmanı məktəblərinə və klublarına daim dəstək göstərir, idmançılarımızın ölkəmizi beynəlxalq yarışlarda təmsil etmələri üçün konkret layihələr və tədbirlər həyata keçirir.

Azərbaycan Velosiped Federasiyası “Həyat müvazinətini velosipedlə saxla!” mövzusunda rəsm müsabiqəsi elan edir. “Həyat müvazinətini velosipedlə saxla!” müsabiqəsinin təşkilində əsas məqsəd ölkəmizdə, xüsusilə də gənclər arasında velosiped idmanı növünün kütləviləşdirilməsi, həmçinin onların sağlam ruhda tərbiyə olunması, eləcə də velosipedçi idmançılara müxtəlif yarışlarda, dünya və Avropa çempionatında, Olimpiya Oyunlarında uğur qazanmaq, onların idman karyerasına dəstək üçün yaradıcı potensiali olan hər bir kəsi cəlb etməklə mövzu baxımından velosiped idmanı ilə bağlı rəsm əsərlərinin yaradılmasına stimul verməkdir.

Müsabiqəyə təqdim olunmuş rəsmlər ideya müxtəlifliyi, kreativlik və texniki meyarlar üzrə qiymətləndiriləcək.

Tanınmış rəssamlar, sənətşünaslar və mütəxəssislərdən ibarət yaradılan münsiflər heyəti tərəfindən müəyyənləşdirilmiş qiymətləndirmə meyarlarına uyğun olaraq üç əsas və 3 həvəsləndirici qalib seçiləcək.

Müsabiqəyə rəsm əsərləri 2022-ci il sentyabrın 30-dək qəbul olunur.

İştirakçılar tərəfindən rəsm əsərləri müsabiqəyə birbaşa və ya poçt vasitəsi ilə təqdim olunmalıdır.

### *“Şuşa İli” və Beynəlxalq Velosiped Gününə həsr olunmuş yarış keçirilib*

Gənclər və İdman, Təhsil nazirlikləri və Azərbaycan Velosiped Federasiyasının birgə təşkilatçılığı ilə Respublika Velotrekində “Şuşa İli” və Beynəlxalq Velosiped Gününə həsr olunmuş trek velosipedi üzrə yarış keçirilib. Yarışın keçirilməsində məqsəd “Şuşa ili” və Beynəlxalq Velosiped Günü haqqında idmançılara ətraflı məlumatların verilməsi, velosiped idmanının təbliği və inkişafı, perspektivli idmançıların aşkar edilməsidir.

“Şuşa sən azadsan” devizi ilə keçirilən yarışda “Təhsil” Respublika İdman Mərkəzinin 7 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq Gənclər İdman Məktəbinin 2005-2010-cu il təvəllüdlü oğlan və qız idmançıları iştirak ediblər.

Şəxsi xarakter daşıyan yarış Beynəlxalq Velosipedçilər İttifaqının (UCİ) mövcud qaydalarına əsasən təşkil edilib.




İdmançılar 200 metr və 2 kilometr məsafəyə fərdi ötüşmədə mübarizə aparıblar.

Startdan öncə AVF və “Təhsil” Respublika İdman Mərkəzinin rəhbərliyi çıxış edərək, idmançılara “Şuşa ili” və Beynəlxalq Velosiped Günü haqqında ətraflı məlumat veriblər.

İki yüz metr məsafəyə fərdi ötüşmədə oğlanlar arasında Cavid Qəfərli, qızların yarışında isə Ayan Məmmədzadə hamını qabaqlayaraq birinci yerə layiq görülüblər.

İki kilometr məsafəyə fərdi ötüşmə oğlanlar arasında Artyom Proskuryakov, qızlarda isə Xədicə Nabatzadə ən sürətli velosipedçi olublar.

Yarışdan sonra mükafatlandırma mərasimi keçirilib.

Qaliblərə medal, diplom və qiymətli hədiyyələr təqdim edilib.

## Cüdo

# Heraklionda tarixi nailiyyət

Yunanıstanın Heraklion şəhərində keçirilən usta cüdoçular arasında Avropa çempionatına iyunun 5-də yekun vurulub. 31 ölkədən 236 (213 kişi, 23 qadın) idmançının 4 gün ərzində mübarizə apardığı yarışda komandamız 8 yaş kateqoriyasında 20 idmançı ilə təmsil olunub.



İdmançılarımız həm fərdi, həm də komanda yarışlarında uğura imza ataraq fəxri kürsüdə yer alıb. Belə ki, millimizin heyətində “Judo Club 2012”nin idman zalında məşq edən 20 cüdoçudan 19-u fərdi yarışları medalla başa vurub. Veteranlardan ibarət komandamızın baş məşqçisi, 9 qat dünya, 8 qat Avropa çempionu Fərhad Rəcəblinin rəhbərlik etdiyi millimiz qitə çempionatında 9-u qızıl, 5-i gümüş, 5-i bürünc olmaqla 19 medala sahib çıxıb.

Komandamıza qızıl medalları Nadir Babayev (M1, -73 kq), Tural Səfquliyev (M1, -100 kq), Məmməd Məmmədov (M2, -73 kq), Samir İsmayılov (M2, -81 kq), Azər Fətullayev (M3, -81 kq), Babək Hacıyev (M4, -60 kq), Emil Hüseynov (M4, -100 kq), Mübariz Cəfərov (M5, -90 kq) və Azərbaycanın ən titullu veteran cüdoçusu Fərhad Rəcəbli (M7, -90 kq) qazandırıb. Bu qələbə Heraklionda öz qalib imicinə sadiq qalan azərbaycanlı cüdo əfsanəsi Fərhad Rəcəblinin 8-ci Avropa çempionluğu kimi yadda qalıb.

Gümüş medallara isə Vüqar Babayev (M2, -66 kq), İntiqam Ələkbərov (M2, -100 kq), Mahir Ağamirzəyev (M4, -90 kq), Müşfiq Cəfərov (M5, -73 kq) və Qabil Qasımov (M6, +100 kq) layiq görülüb.

İlham Heydərov (M2, -100 kq), Ramil Muradov (M2, -100 kq), Rauf Fərzəliyev (M4, -73), Natiq Qasımov (M6, -81 kq) və Şamil Sövzəliyev (M8, -81 kq) isə fərdi yarışların bürünc medallarına sahib çıxıblar.

Beləliklə, fərdi yarışları 19 medalla başa vuran cüdoçularımız bu nəticə ilə kişilər arasında və ümumi komanda hesabında birinci yeri tutublar. İkinci yerə 5 qızıl, 5 gümüş və 3 bürünc medalla İtaliya komandası sahib çıxıb. Gürcüstanlı veteranlar isə 5 qızıl, 2 gümüş və 9 bürünc medalla üçüncü olublar. Bu, cüdo ustalarımızın veteranlar arasında keçirilən Avropa çempionatları tarixində qazandığı ən yüksək nailiyyət hesab olunur.

Qitə çempionatının sonuncu günündə isə komanda yarışları təşkil olunub. 5 komandanın iştirak etdiyi yarışlarda Azərbaycan təmsilçiləri kişilər arasında 30-39 yaş qrupu üzrə mübarizə aparıb. Cüdo millimiz yarışı bürünc medalla başa vurub. Komandamız üçüncü yer uğrunda həlledici görüşdə Fransa yığmasına qalib gəlib. Komanda yarışlarının qalibi isə Gürcüstan millisi olub.

* * *

Gürcüstanın paytaxtı Tbilisidə cüdo üzrə “Böyük dəbilqə” turniri keçirilib. 36 ölkədən 278 (173 kişi, 105 qadın) cüdoçunun iştirak etdiyi yarışda Azərbaycan idmançıları da qüvvələrini sınayıblar. Komandamız turnirdə 10 (8 kişi, 2 qadın) cüdoçu ilə təmsil olunub. Tatami ustalarımız yarışı iki bürünc medalla başa vurublar. Komandamıza bürünc medalları Turan Bayramov (60 kq) və Elcan Hacıyev (81 kq) qazandırıb.

* * *

Avstriyanın Qrats şəhərində keçirilən cüdo üzrə gənclər arasında Avropa kuboku yarışına yekun vurulub. 37 ölkədən 511 cüdoçunun (326 oğlan, 185 qız) iştirak etdiyi yarışda Azərbaycan cüdoçuları da qüvvələrini sınayıblar.



Komandamız yarışda 14 cüdoçu ilə təmsil olunub. Gənc cüdoçularımız yarışı 2 gümüş medalla başa vurublar. Komandamıza gümüş medalları Vüsal Qələndərzadə (-73 kq) və Vüqar Talıbov (-90 kq) qazandırıb.

* * *

BMT-nin Baş Assambleyası tərəfindən iyunun 26-sı Narkomaniyaya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə Günü elan edilib. Bu günün əhəmiyyəti və vacibliyini geniş ictimaiyyətə çatdırmaq üçün Azərbaycan Cüdo Federasiyası (ACF) “İdmanı seç, sağlam qal!” və “Narkotikə yox” şüarları altında kampaniya elan edərək idman ictimaiyyətini səfərbər olmağa çağırır.

Federasiyanın mətbuat xidmətindən bildiriblər ki, kampaniyanın əsas məqsədi yeniyetmə və gəncləri sağlam həyat tərzini seçməyə, asudə vaxtlarını daha səmərəli keçirməyə və zərərli vərdişlərdən uzaq olmağa təşviq etməkdir.

Azərbaycan cüdo ailəsinin üzvləri narkotikə yox deyərək kampaniyaya qoşulublar. Bununla da cüdo ailəsi sağlam cəmiyyətin qurulmasına sadiq olduğunu nümayiş etdirib. Bu günün önəmini vurğulamaq üçün ACF estafeti Güləş, Gimnastika, Həndbol, Stolüstü Tennis, Ağır Atletika federasiyalarına ötürür.

# Formula 1 Azərbaycan Qran-Prisinə 3 gün qalır

## Yarış günlərində uşaqlar da yaddan çıxmayacaq

Formula 1 Azərbaycan Qran-Prisinin fanatları nəhayət ki, tribunalara qayıdır. Məşhur avtoidman yarışı pandemiya səbəbindən 2020-ci ildə təxirə salınıb, ötən il isə azarkeşlərin iştirakı olmadan baş tutmuşdu. Sürət azarkeşlərinin səbirsizliklə gözlədiyi Formula 1 Azərbaycan Qran-Prisinin həyəcanını bu il birbaşa tribunadan yaşamaq mümkün olacaq.

Hər il olduğu kimi, bu il də bilet sahibləri Dənizkənarı Milli Park ərazisində əyləncə proqramlarına qatıla biləcəklər. Balaca azarkeşlər də darıxmayacaq. Uşaqlar və yeniyetmələr üçün xüsusi ayrılmış "Game Park" onların üzəyincə olacaq. "Game Park"da ekstremal əyləncələr olacaq. Zonada "Upside down", "Climbing wall", "Helmet bouncy castle", "Trampoline", "Have a ride" və "Roll it" əyləncə proqramları təqdim olunacaq.

Qeyd edək ki, iyunun 10-12-də keçiriləcək Formula 1 Azərbaycan Qran-Prisi üçün hazırlıqlar plana uyğun davam edir.

## Azarkeşlər pilotlarla yenidən görüşə biləcəklər

Formula 1 azarkeşlərinin səbirsizliklə gözlədiyi avtoqraf sessiyası ikiillik fasilədən sonra Azərbaycan Qran-Prisinə qayıdır. Avtoidman həvəskarları yarış həftəsi çərçivəsində - iyunun 11-də məşhur pilotlarla yenidən görüşmək imkanı qazanacaqlar.

Bütün bilet sahibləri Formula 1 şəhərciyi ərazisində baş tutacaq avtoqraf sessiyasında öz sevimli ulduzlarını görə biləcəklər.

Formula 1-in üçüncü sərbəst yürüşündən əvvəl nəzərdə tutulan avtoqraf sessiyasında azarkeşlər kral yarışlarının ulduz sürücüləri ilə görüşmək, xatirə şəkli çəkdirmək və xüsusi imzalı kartları özləri ilə götürmək imkanı əldə edəcək, bu möhtəşəm görüşdən xoş təəssüratlarla ayrılacaqlar.

Bilet sahiblərindən avtoqraf sessiyalarının bir hissəsi olmaq və avtoidmanın məşhurları ilə görüşmək üçün əvəzolunmaz şansı əldən verməmək üçün Azarkeş Zonasına erkən gəlmələri xahiş olunur.

Avtoqraf sessiyaları ilə yanaşı, bu ilin bilet sahibləri pit zolağında gəzə biləcəklər. Pit zolağı gəzintisi iyunun 9-na nəzərdə tutulub.

Xatırladaq ki, yalnız üçgünlük bileti olan tamaşaçılar pit zolağında gəzə biləcəklər.

## "Bakıda Monakodakı kimi sərt döngələr yoxdur"

Formula 1 komandaları növbəti həftəsonu Bakıda keçiriləcək Azərbaycan Qran-Prisinə hazırlaşırlar.

Artıq bəzi pilotlar Bakıdakı yarış haqda proqnozları ilə diqqət çəkməyə başlayıblar.

"Alfa Romeo"nun pilotu Valtteri Bottas yarışın onlar üçün uğurlu keçəcəyinə inandığını söyləyib: "Bizim bolidin texniki keyfiyyətləri Monakodakı döngələrə uyğun deyil. Bakıdakı trasın döngələri isə standartdır. Bakıda Monakodakı kimi sərt döngələr yoxdur. Yalnız İçərişəhər ətrafında sərt döngəyə rast gəlirik. Bu da bizim xeyrimizə işləyəcək".

## "Red Bull Racing" "Aston Martin"ə qarşı

Formula 1 çempionatının Azərbaycan Qran-Prisində "Red Bull Racing" komandasının pilotu Maks Ferstappen podiumların sayına görə özünün sələfi Sebastian Fettelin rekordunu qıra bilər.

Fettel Monakoda qalib gəlmədi, lakin öz karyerasında 65-ci dəfə fəxri kürsüyə qalxaraq, nə vaxtsa "Red Bull Racing" komandasında çıxış edən, hazırda "Aston Martin"in pilotu ilə bu göstərici üzrə bərabərləşdi. Bakıda isə Maks artıq Sebastianın nailiyyətlərini üstələyə bilər.

Bununla belə, Ferstappenin Fettel qarşısında üstünlüyü tam olmayacaq, çünki Fettel özünün 65 podiumuna 113 yürüşdə nail olub, hazırkı dünya çempionuna bunun üçün 125 yürüş tələb olunur. Yeri gəlmişkən, "Red Bull Racing"in sabiq pilotu Mark Uebber də bu reytinqdə üçüncüdür. O, 110 yürüşdə 41 dəfə fəxri kürsüyə qalxıb.

## Azərbaycan Qran-Prisi "Drive to survive" sənədli serialında

ABŞ-ın məşhur "Netflix" onlayn platformasının nümayəndələri Formula 1 Azərbaycan Qran-Prisi çərçivəsində ölkəmizə səfər edəcəklər. Formula 1 yarışlarından bəhs edən, qısa zamanda böyük tamaşaçı marağı qazanmış "Drive to survive" sənədli serialının 5-ci mövsümündə Bakı yarışının həyəcanlı anları da yer alacaq.

Maraqlı idman mübarizəsi ilə yadda qalan öncəki Bakı yarışlarının görüntülərinə də serialda yer verilib. 2018-ci ildə "Red Bull" komandasının pilotlarının toqquşması, 2021-ci ildə Maks Ferstappenin yarışın bitməsinə üç dövrə qalmış qəzaya uğraması, Luis Hamiltonun yarışın restartındakı böyük səhvi kimi dramatik səhnələr Bakı yarışını daha da unudulmaz edib.

"Bakı yuxularıma kabus kimi girir", - buraxdığı səhvdən sonra Luis Hamiltonun "Mersedes" komandasının rəhbəri Toto Vulf ilə söhbət zamanı səsləndirdiyi fikir "Drive to survive" izləyicilərinin diqqətindən qaçmayıb.

Serial yayımlandığı dörd mövsüm ərzində azarkeşlərə Formula 1 yarışlarının maraqlı məqamlarını, komanda və pilotların real hazırlıq prosesini, həyəcanlı görüntülərini, bir sözlə, F-1 ruhunu daha yaxından hiss etdirməyi bacarıb.



# Paytaxtımız dünya kubokuna ev sahibliyi edir

***Mayın 28-indən etibarən paytaxtımızda keçirilən atıcılıq üzrə dünya kuboku yarışı bu gün başa çatır. Yarışların keçirildiyi günlərdə Bakı Atıcılıq Mərkəzində fəxri mükafatlar uğrunda mübarizədə 66 ölkədən 705 idmançı 30 növ üzrə gücünü sınayır. Turnirdə qarışıq komanda, komanda və şəxsi yarışlar keçirilir. Azərbaycanı dünya kuboku yarışında 36 idmançı təmsil edir.***

Bakı Atıcılıq Mərkəzində keçirilən yarışının açılış mərasimində gənclər və idman nazirinin müavini Mariana Vasileva, Beynəlxalq İdman Atıcılığı Federasiyasının prezidenti Vladimir Lisin, Azərbaycan Atıcılıq Federasiyasının baş katibi Emin Cəfərov və idman ictimaiyyətinin digər rəsmi nümayəndələri iştirak ediblər.

Mərasimdə çıxış edən gənclər və idman nazirinin müavini Mariana Vasileva iştirakçıları, həmçinin xarici ölkələrdən gələn qonaqları salamlayıb və belə bir tədbirin Bakıda keçirilməsindən qürur duyduğunu diqqətə çatdırıb.

"Azərbaycanda bütün sahələrdə olduğu kimi, idman sahəsində də nüfuzlu tədbirlər təşkil edilir. Ölkəmiz 2015-ci ildə birinci Avropa Oyunlarına ev sahibliyi edib. Bundan əlavə, 2017-ci ildə Azərbaycanda IV İslam Həmrəyliyi Oyunları keçirilib. Həmin yarışlarda atıcılıq üzrə də idmançılar mübarizə aparıblar. Ölkəmizdə eyni zamanda, dünya və Avropa çempionatları təşkil olunub. Biz çox şadıq ki, pandemiyadan sonra 66 ölkədən 700-dən çox idmançını Bakıda qarşılayırıq", - deyə M.Vasileva əlavə edib.

Nazir müavini həmçinin çıxışında Olimpiya çempionumuz Zemfira Meftaxetdinovanı doğum günü münasibətlə təbrik edib.




Atıcılıq Federasiyasının baş katibi Emin Cəfərov Azərbaycanda bu nüfuzlu turnirin yüksək səviyyədə keçirilməsi üçün bütün imkanların yaradıldığını bildirib: "Ölkəmizdə çox nüfuzlu tədbirlər və yarışlar yüksək səviyyədə keçirilir. Əminik ki, dünya kuboku yarışı da yüksək səviyyədə təşkil olunacaq və idmançılar öz potensiallarından maksimum istifadə edə biləcəklər".

Beynəlxalq İdman Atıcılığı Federasiyasının prezidenti Vladimir Lisin isə çıxışında bildirib ki, Azərbaycan bu yarışa lazımi səviyyədə hazırlaşıb və təşkilatçılıq ən yüksək formadadır. O, Azərbaycan Prezidenti İlham Əliyevin idmana və atıcılığa göstərdiyi yüksək diqqət və qayğıdan bəhs edib. "Azərbaycan Gənclər və İdman Nazirliyinə və Atıcılıq Federasiyasına yüksək təşkilatçılıq üçün təşəkkür etmək istəyirəm. Beynəlxalq İdman Atıcılığı Federasiyası olaraq atıcılıq idmanının inkişafına, daha da tərəqqi etməsinə bundan sonra da dəstəyimizi göstərəcəyik", - deyə V.Lisin bildirib.

Çıxışlardan sonra mərasim bədii hissə ilə davam edib.

Bakı Atıcılıq Mərkəzində keçirilən yarışlara mayın 28-də start verilib. İyunun 7-dək davam edəcək turnirdə 66 ölkədən 705 idmançı 30 növ üzrə gücünü sınayır. Turnirdə qarışıq komanda, komanda və şəxsi yarışlar keçirilir. Azərbaycanı dünya kubokunda 36 idmançı təmsil edir. Onlardan 17-si oğlan, 19-u qızlardır.

Turnirdə idmançılar ümumilikdə, 30-u qızıl olmaqla, 188 medal uğrunda mübarizə aparırlar.

Yarışın birinci günündə qadınlar və kişilər arasında 10 metr məsafəyə tüfəngdən atəşaçma yarışları keçirilib. 95 idmançının iştirak etdiyi qadınların turnirində fransalı Osean Müller finalda rəqibi polşalı Aneta Stankeviça 16:12 hesabı ilə qalib gələrək qızıl medal qazanıb. Rumıniyalı İli Laura-Georgeta bürünc medala sahib olub.

10 metr məsafəyə tüfəngdən atəşaçma yarışında isə kişilər arasında serbiyalı Lazar Kovaçeviç ən yüksək nəticə göstərərək birinci yeri tutub. O, həlledici mərhələdə 16:14 hesabı ilə xorvatiyalı Miran Mariçiçi üstələyib. Bürünc medalı isə qazaxıstanlı İslam Useynov əldə edib.

10 metr məsafəyə tapança atıcılığı növündə final yarışında isə serbiyalı Damir Mikeç Bolqarıstan təmsilçisi Kaloyan Stamenovu məğlub edərək, qalib adını qazanıb. Almaniyalı Maykl Şvald isə bürünc medal əldə edib.

10 metr məsafəyə pnevmatik tapançadan atəşaçma yarışında da qadınlar arasında mükafatçılar müəyyənləşib. Belə ki, bütün rəqiblərini üstələyən polşalı Klaudia Bres qalib adına layiq görülüb. Fransa təmsilçisi Camille Jedrzejevski və bolqarıstanlı Antoaneta Kostadinova sonrakı yerlərdə qərarlaşıblar.

10 metr məsafəyə pnevmatik tüfəngdən qarışıq növdə atəşaçma yarışlarında koreyalı Keum Jihyeon - Park Hajun cütlüyü birinci yeri tutub. Həmin məsafə üzrə pnevmatik tapançadan atəşaçma yarışlarında isə Yunanıstan təmsilçiləri Anna Korakaki - Dionysios Korakakis cütlüyü fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıb.

Dünya kubokunda həmçinin stend atıcılığının səngər növü üzrə qadınlar və kişilər arasında keçirilən final yarışının da qalibləri müəyyənləşib. Qadınların yarışında finlandiyalı Noora Antikaynen, kişilər arasında isə çexiyalı Liptak Jiri qızıl medal qazanıblar.

Stend atıcılığının final yarışını gənclər və idman naziri Fərid Qayıbov da izləyib. Nazir qaliblərə medalları təqdim edib.







Kişilər arasında 10 metr məsafəyə pnevmatik tüfəngdən atəşaçma üzrə komanda yarışında Cənubi Koreya (Hajun Park, Sangdo Kim, Seungho Bang) təmsilçiləri qalib adını qazanıblar. Bu növdə qadınların yarışında isə Hindistan (Shreya Agraval Elavenil Valarivan, Ramita Ramita) atıcıları fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıblar.

Kişilər arasında pnevmatik tapançadan atəşaçma üzrə komanda yarışı isə İranın (Sajad Poorhosseini Lafmejani Javad Foroughi, Mohammadrasoul Efati) qalibiyyəti ilə başa çatıb. Qadınlarda isə ən yüksək nəticəni Cənubi Koreya (Hyunyoung Yoo, Minjung Kim, Bomi Kim) millisi göstərib.






Dünya kubokunda səngər stendi üzrə kişilər arasında komanda yarışında isə Küveyt yığması (Naser Meqlad, Abdulrahman Al Faihan, Talal Alrashidi) birinci yeri tutub.

Qadınların yarışında isə ABŞ atıcıları (Aeriel Alease Skinner, Kayle Brovninq, Rachel Leighanne Tozier) ilk pillədə qərarlaşıblar.

Dünya kuboku yarışında səngər stendi üzrə qarışıq komanda yarışında Avstraliya yığması qızıl medal qazanıb. İkinci yeri Portuqaliya atıcıları tutublar. Üçüncü pillədə isə Türkiyə və Qazaxıstan komandaları qərarlaşıb.

Tüfəngdən 50 metr məsafəyə atəşaçma üzrə kişilərin yarışında Ukrayna təmsilçisi Serhiy Kuliş qızıl medal qazanıb. İkinci yerdə hindistanlı Svapnil Kusale, üçüncü pillədə isə Finlandiya atıcısı Aleksi Leppa qərarlaşıb.

İyunun 4-də 25 metr məsafəyə tapançadan atəş üzrə qadınlar arasında komanda yarışında Ukrayna komandası tailandlı atıcıları 17:11 hesabı ilə məğlub edərək qızıl medal qazanıb. Final yarışının Ukraynanın bayrağı rənglərində bantla çıxan tailandlı qızların hərəkəti isə hər kəsi kövrəldib.

"Bakıda Ukraynanın himnini eşitmək hər nə qədər sevincli olsa da, mənim üçün bir o qədər ağır idi. Dövlətimin himni çalınanda Vətənimdə yaşananlar gözlərimin qarşısına gəlir və qəribə hisslər keçirirəm. Ən böyük arzum qələbə qazanıb himnimizin səslənməsinə nail olmaq idi. Azərbaycan xalqının Ukraynaya verdiyi dəstək bizim üçün çox önəmlidir. Ukraynaya indi çox ağırdır, çox", - ukraynalı Oksana Kovalçuk deyib.

Həmin gün Ukrayna komandası növbəti medalını 50 metr məsafəyə tüfəngdən atəş üzrə qarışıq komanda yarışında qazanıb. Hindistanlılara uduzan Ukrayna komandası gümüş medala sahib olub.

İyunun 4-də keçirilən yarışlarda növbəti bürünc medal ukraynalılara 25 metr məsafəyə tapançadan sürətli atəşaçma üzrə kişilər arasında yarışdan gəlib. Bu yarışın qızıl medalına isə Fransa idmançısı Jan Kikampua sahib çıxıb.

İyunun 5-də keçirilən atıcılıq üzrə dünya kubokunun finallarında 25 metr məsafəyə tapançadan cəld atəşaçma üzrə qarışıq komanda yarışında qızıl medalı Koreya komandası qazanıb. Yarışın həm gümüş, həm də bürünc medalına isə Ukrayna komandaları sahib çıxıb.

Stend atıcılığının dairəvi növü üzrə qadınlar arasında qızıl medal uğrunda komanda yarışında Almaniya komandası qalib gəlib. Gümüş medalı isə Amerika Birləşmiş Ştatlarının qadın atıcıları əldə edib. ABŞ-ın kişi komandası eyni növdə yarışın qızıl medalına yiyələnib.

Qeyd edək ki, Bakıda atıcılıq üzrə keçirilən dünya kuboku geniş auditoriya qazanıb. Təkcə Beynəlxalq Atıcılıq İdman Federasiyasının saytındakı canlı yayımın ötən bir həftədə 80 min izləməsi olub. Bundan əlavə, yarışlar peyk vasitəsilə dünyanın bir sıra ölkələrinin telekanallarında canlı yayımlanır.

# Qadın güləşçilərimiz reytinq turnirində dörd medala sahib çıxdılar

Qadın güləşçilərimiz Qazaxıstanın Almatı şəhərində keçirilən Bolat Turlıxanov kubokunda iştirak ediblər. Reytinq turnirində ölkəmizi altı qadın güləşçi təmsil edib.

Əlli kiloqram çəki dərəcəsində iki təmsilçimiz dörddəbir final mərhələsindən mübarizəyə qoşulub. Şəhanə Nəzərova qazaxıstanlı Aygül Nuralimə, Türkan Nəsirova isə monqolustanlı Namuuntsetseq Tsoq-Oçirə məğlub olub. Türkanın rəqibi finala yüksəldiyi üçün güləşçimiz bürünc medal görüşünə çıxıb. Aygül Nuralimə minimal fərqlə (4:3) qalib gələn T.Nəsirova yarışı üçüncü pillədə başa vurub.

53 kiloqramda Tatyana Varansova ilk mərhələdə özbəkistanlı Aktenqe Keunimjaevaya uduzub. Bu çəkidəki digər təmsilçimiz Leyla Qurbanova hindistanlı Puca Gehlota 7:2 hesabıyla qalib gələrək yarımfinala yüksəlib. Ancaq finalın bir addımlığında monqolustanlı Bolortuya Bat Oçirlə bacarmayıb. Həmyerlimiz qazaxıstanlı Aişə Ualişanı üstələyərək bürünc medala sahib çıxıb.

Jalə Əliyeva (59 kq) A qrupunda mübarizə aparıb. Jalə Tsoqzolmaa Dorjsuren (Monqolustan), Ayşən İsmagülova (Qazaxıstan) və Difuzə Aimbetova (Özbəkistan) üzərində qazandığı qələbələrlə qrup qalibi kimi yarımfinala yüksəlib. Qazaxıstanlı Diana Kayumovaya 8:6 hesabı ilə qalib gələn Jalə Əliyeva finala vəsiqə qazanıb. Həlledici görüşdə hindistanlı Sarita Saritaya uduzan idmançımız turniri gümüş medalla başa vurub.

Elis Manolova (65 kq) qrup mərhələsində Manişa Manişa (Hindistan), Dinora Rüstəmova (Özbəkistan) və Yelena Şaliginadan (Qazaxıstan) güclü olub. Yarımfinalda Qazaxıstanın digər təmsilçisi Qauxar Mukatayı 9:1 hesabı ilə məyus edən millimizin üzvü finalda yenidən Manişa Manişayla qarşılaşıb. O, həlledici qarşılaşmada uduzaraq komandamızın hesabına gümüş medal yazıb.

Beləliklə, millimiz reytinq turnirində 2 gümüş və 2 bürünc medal əldə edib.

Qeyd edək ki, sərbəst və yunan-Roma güləşi üzrə yığma komandalarımız daha nüfuzlu yarış olan Matteo Pellicone turnirində iştirak edəcək. İyunun 22-dən 25-dək İtaliyanın paytaxtı Romada keçiriləcək sayca üçüncü reytinq turnirinin nəticələrinə əsasən, sentyabrda Serbiyada təşkil olunacaq dünya çempionatında iştirak edəcək heyət müəyyənləşəcək.




# Cüdo üzrə hakimlər üçün seminar



Azərbaycan Cüdo Federasiyasının (ACF) hakimlər üzrə meneceri, beynəlxalq dərəcəli "A" kateqoriyalı hakimi Mətin Rəhimli Qazaxıstanın Almatı şəhərində Beynəlxalq Cüdo Federasiyası (BCF) tərəfindən hakimlər üçün təşkil olunan təlimdə iştirak edib.

Mətin Rəhimli həmin təlimdə qazanılan nəzəri və praktiki biliklərin əsasında federasiyanın hakim heyəti üçün "Judo Club 2012"də seminar keçib. Hakimlər Komitəsinin üzvü Arzu Acalova və digər aparıcı hakimlərimizin də iştirak etdiyi seminarda yarışların daha dəqiq və səmərəli idarə edilməsi üçün müxtəlif nəzəri və praktiki məsələlər müzakirə edilib.

Azərbaycan Cüdo Federasiyası həm milli, həm də beynəlxalq səviyyədə hakimlərin peşəkarlıq səviyyəsinin artırılması, o cümlədən "A" və "B" kateqoriyalı beynəlxalq dərəcəli hakimlərin sayının çoxaldılması istiqamətində sistemli və ardıcıl fəaliyyətini davam etdirir.

## *Azərbaycanlı hakim WAKO prezidenti tərəfindən mükafatlandırılıb*

İstanbulda Dünya Kikboksinq Təşkilatları Birliyinin (WAKO) təqviminə uyğun olaraq dünya kuboku yarışı keçirilib. Yarışda Azərbaycan Kikboksinq Federasiyasının Hakimlər Kollegiyasının müavini, beynəlxalq "A" dərəcəli hakim Aydın Ağabəyov



da ədalət təmsilçisi kimi dəvət edilib. A.Ağabəyov yarışın final döyüşlərini idarə edib. Həmyerlimiz yarışın seçilmiş hakimi kimi WAKO-nun prezidenti Roy Baker və Türkiyə Kikboksinq Federasiyasının rəhbəri Salim Kayıcı tərəfindən mükafata layiq görülüb.



# Avarçəkmə uzun illərdən sonra yenidən Bakı sularında

Dənizkənarı Milli Park ərazisindəki "Kiçik Venesiya şəhərciyi"ndə Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasının (AKAF) mətbuat konfransı keçirilib. Tədbirdə Gənclər və İdman Nazirliyinin idman şöbəsinin müdiri Elnur Məmmədov, AKAF-ın vitse-prezidenti Fərid Əmirov və baş katibi Fərhad Əliyev iştirak edib. Gənclər və İdman Nazirliyinin idman şöbəsinin müdiri Elnur Məmmədov federasiyanın 2022-ci ildə gördüyü işləri yüksək qiymətləndirib. O, mayın 6-7-də təşkil edilən "Prezident kuboku-2022" beynəlxalq reqatasının əhəmiyyətini xüsusi vurğulayıb. E.Məmmədov, həmçinin Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasına gələcək işlərində uğur arzulayıb.

Sonra çıxış edən federasiya nümayəndələri AKAF-ın 2022-ci ildə gördüyü işlər və gələcək planları haqqında məlumat verib.

Qeyd olunub ki, 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günündə keçirilən tədbir zamanı ölkənin müxtəlif regionlarında uşaqlarla mütəmadi olaraq səyyar görüşlər keçirilir. Burada əsas məqsəd uşaqlar və yeniyetmələr arasında avarçəkmə idmanına marağı artırmaq və kütləviliyi təmin etməkdir. İyunun 1-dən isə bulvar ərazisində "Kiçik Venesiya şəhərciyi"ndə avarçəkmə məşqləri keçirilir. Hazırda Bakı Bulvarında dəniz avarçəkməsinin tələblərinə uyğun ərazini müəyyənləşdirmək üçün mütəxəssislər işləyirlər. Yaxın zamanda Xəzərdə dəniz avarçəkməsinin inkişafına başlanılacaq.

Həmçinin bu il ərzində federasiyanın gördüyü işlər barədə də media nümayəndələrinə məlumat verilib. Bildirilib ki, federasiyanın rəsmi adı və loqotipi dəyişdirilib. Yanvarın 29-da Mingəçevirdə "Kür" Olimpiya Tədris-İdman Mərkəzində Gənclər Gününə həsr edilən "Gənclər kuboku" keçirilib. Koronavirus pandemiyasından sonra baş tutan həmin yarışın təşkilində əsas məqsəd idmançıların hazırlıq səviyyəsini yoxlamaq olub. Novruz Bayramı ərəfəsində AKAF işğaldan azad olunmuş torpaqlarımızda idmançıların genişmiqyaslı ilk təlim-məşq toplanışını keçirib. Toplanışı Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın şəxsən izləməsi federasiya üçün böyük qürur olması ilə yanaşı, məsuliyyəti də artırıb. Diqqətə çatdırılıb ki, işğaldan azad olunmuş ərazilərimizdə ilk beynəlxalq yarışı da Azərbaycan Kanoe və Avarçəkmə Federasiyası keçirib. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu il dönümünə həsr edilən "Prezident kuboku-2022" beynəlxalq reqatasının ilk günü Suqovuşan su anbarında təşkil edilib.

Mətbuat konfransında Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasının yeni rəsmi saytı (akaf.az) ictimaiyyətə təqdim olunub.

Sonda "Kiçik Venesiya şəhərciyi" ərazisindəki suda avarçəkmə qayıqları nümayiş etdirilib.

# "Bakı kuboku"nun qalibləri mükafatlandırıldı

Voleybolçu qızlar və oğlanlar arasında keçirilən "Bakı kuboku" yarışına yekun vurulub. Azərbaycan Voleybol Federasiyası və Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən yarışda 11 qız ("Zenit", 7H İOEUGİM-1, 7H İOEUGİM-2, "Xətai", "Azərreyl-1", "Azərreyl-2", "Ryuqa", "Sərhədçi", RSG, "Ekspress", "Aura"), 13 oğlan (2H İOEUGİM-2, "İnşaat", "Əlincə", "Aura", "Feniks", "Binə", "Xətai-6", "Xətai-7", 2H İOEUGİM -1, RSG, "Ryuqa", "Taleh", "Azəri") komandası mübarizə aparıb. Azərbaycan Voleybol Federasiyasının idman zalında təşkil olunan yarış Olimpiya sistemi ilə keçirilib.

Maraqlı keçən görüşlərdən sonra oğlan voleybolçuların finalında "Ryuqa" "Azəri"komandası ilə qarşılaşıb. Hər üç setdə (25:20, 25:22, 25:21) hesabı ilə rəqibini məğlub edən "Ryuqa" "Bakı kuboku"nun qalibi olub.

Qızların yarışında isə finalda "Sərhədçi" "Azərreyl-1"lə üz-üzə gəlib. Final matçında "Azərreyl-1" komandasına qalib gələn "Sərhədçi" "Bakı kuboku"nun sahibi olub.

Azərbaycan Voleybol Federasiyası və Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən yarışın qaliblərinə kubok, medal və diplomlar verilib. Mükafatları Azərbaycan Voleybol Federasiyasının (AVF) vitse prezidenti Əbülfəz Hüseynov, AVF-nin baş katibi Fərid Xəlilov, "Sərhədçi" voleybol



klubunun prezidenti polkovnik Firdovsi Umudov, "Sərhədçi" İdman Olimpiya Mərkəzinin rəisi polkovnik Elşən Mirzəyev, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəis müavini Rəşad Əliyev, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin nümayəndələri Samir Kazımov, Valentina Sultanova və Tatyana Korjova təqdim ediblər.

# "Burevestnik"in əfsanəsi 90 yaşında



Bakının "Burevestnik" komandasının voleybolçusu, SSR idman ustası, SSR-nin əməkdar məşqçisi, əfsanəvi voleybol mütəxəssisi Anatoli Makaqonov bu günlərdə 90 yaşını qeyd edib. A.Makaqonov 1956-cı ildə S.M.Kirov adına Azərbaycan Dövlət Bədən tərbiyəsi İnstitutunu bitirib. Elə həmin il o, Fransanın paytaxtı Parisdə keçirilən dünya çempionatında bürünc medala layiq görülüb. 1959-cu ildə isə mütəxəssis Azərbaycan SSR-nin tərkibində Moskvada (Rusiya) təşkil olunan II Yay SSR Xalqlar Spartakiadasında bürünc medala yiyələnib.

Peşəkar məşqçi 20 ilə yaxın qadınlardan ibarət "Politexnik" voleybol komandasına məşqçilik edib. Qeyd edək ki, məhz bu komanda 1993-cü ildə qadınlar arasında təşkil olunan birinci Rusiya kuboku yarışının qalibi olub. Onun rəhbərliyi altında SSR-in tələbələrdən ibarət yığma komandası 1987-ci ildə Zaqrebdə keçirilən Ümumdünya Universiadasında gümüş medal əldə edib. Həmçinin Anatoli Makaqonov kişilərdən ibarət "Torpedo" komandasının böyük məşqçisi olub. 2017-2019-cu illərdə isə mütəxəssis Super Liqada yer alan Çelyabinskin qadınlardan ibarət "Dinamo Metar" komandasının məşqçilər heyətinin üzvü kimi fəaliyyət göstərib. 2019-cu ildə Anatoli Makaqonov baş məşqçi vəzifəsindən istefa verib. Elə həmin il mütəxəssis dövlət tərəfindən ikinci dərəcəli vətənə qulluq ordeni ilə təltif olunub.



# İdman yarışları beynəlxalq qanunlar çərçivəsində keçirilir

Peşəkar idmanla məşğul olan şəxslərin hüquqi vəziyyəti bir çox amillərlə müəyyən edilir. Bunlara müxtəlif hüquqi forma almış sosial reallığın elementləri daxildir. İdman hüququ mürəkkəb bir hüquq sahəsidir, idman və bədən tərbiyəsi ictimai münasibətləri tənzimləyən hüquq normalarının məcmusudur.

Hazırda ölkəmizdə bədən tərbiyəsi və idman fəaliyyətinin hüquq qanunları mexanizmi getdikcə daha da çox inkişaf edir və təkmilləşdirilir. İdman hüququ sahəsi Azərbaycan Respublikasının hüquq qanunlarının gənc sahələrindən biridir.

İdmanın hüquqi inkişaf məsələlərini və qanunvericilik bazasının genişləndirmək üçün Azərbaycan Avropa ölkələri ilə əməkdaşlıq edir. İdman yarışları Olimpiya oyunları, dünya, Avropa çempionatları beynəlxalq qanunlar çərçivəsində keçirilir. Hazırda Azərbaycan Respublikasında bədən tərbiyəsi və idman tədbirləri, müxtəlif idman yarışları və əyləncə idman məşğələlərinin keyfiyyətinin yüksəldilməsi və sağlamlığın qorunub saxlanılması istiqamətində bir çox bədən tərbiyəsi və idman tədbirləri həyata keçirilir. Onu da qeyd etmək lazımdır ki, kütləvi idman tədbirləri yeniyetmə, gənc və yaşlı nəslin idmana cəlb olunmasında böyük rol oynayır.

Bədən tərbiyəsi və idmanın hüquq qanunlarında idmançıların təkcə fiziki deyil, həm də psixoloji sağlamlığının qorunması məsələlərinə diqqət yetirilir.

İdman ekspertlərinin fikrincə, idman qanunvericiliyində zəif cəhətləri aşkar etməyə yönəlmiş bir sıra sosioloji araşdırmalar aparmaq lazımdır. Belə bir texnikanı idman təşkilatlarının və fəaliyyətinin monitorinqi də adlandırmaq olar. Artıq mövcud qayda və qaydaların fəaliyyətinə nəzarət etmək məqsədi, idman fəaliyyətini tənzimləmək, onlarda olan boşluqları və ya çatışmazlıqları aşkar etmək, aradan qaldırmaq və uyğunlaşdırmaq üçün hüquqi beynəlxalq norma və standartlarla mövcuddur.

*Eldar Abdullayev,*
*Azərbaycan Dövlət Pedaqoji Universitetin İncəsənət Fiziki tərbiyə və ÇH Tədrisi Texnologiyası kafedrasının müdiri*

### REDAKSİYANIN POÇTUNDAN

# Vətən müharibəsi şəhidinin xatirəsinə idman yarışı keçirilib

Lənkəran Olimpiya İdman Kompleksində Vətən müharibəsi şəhidi Həsənağa Abdullazadənin xatirəsinə həsr olunmuş uşaqlar, yeniyetmələr, gənclər və böyüklər arasında VKC növləri üzrə karate turniri keçirilib. 80 idmançının iştirak etdiyi yarışın açılışını Lənkəran ŞİH başçısının birinci müavini Möhübbət Babayev edib. O, idman yarışlarının gənc nəslin fiziki və mənəvi tərbiyəsində oynadığı mühüm roldan danışaraq belə turnirlərin torpaq uğrunda şəhidlik zirvəsinə



ucalan qəhrəman oğullarımızın həyat və döyüş yolu barədə daha geniş informasiya almasına imkan yaratdığını deyib.

Şəhidin atası Şakir Abdullazadə, anası Səmilə xanım çıxışlarında övladlarının adı ilə bağlı görülən işlərdən təskinlik tapdığını deyərək, şəhid valideynlərinə dövlət tərəfindən göstərilən xüsusi diqqət və qayğıya görə ölkə başçısı cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlığını bildiriblər.

Çıxışlardan sonra yarışa start verilib. Karate-Do Federasiyasının İdarə Heyətinin və Lənkəran Şəhər Gənclər və İdman İdarəsinin rəhbərliyi altında keçirilən yarışda Lənkəran, Astara, Masallı, Cəlilabad və Beyləqan rayonlardan 2 komanda, Bakı şəhərindən isə 3 komanda iştirak edib. Gərgin və maraqlı idman şəraitində keçən yarışın qalibləri diplom və medallarla təltif olunublar.

* * *

Lənkəran şəhərində Vətən müharibəsi şəhidi Samir Allahverdiyevin xatirəsinə həsr olunmuş mini futbol turniri keçirilib. Yeniyetmələr arasında təşkil olunan turnirə Vətən yolunda canından keçən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla anılmaqla start verilib. Yarışın sonunda qalib komandalar diplom və kubokla təltif ediliblər. Daha sonra meydana çıxan incəsənət nümayəndələri rəşadətli Azərbaycan Ordusunu və şanlı Qələbəni tərənnüm edən vətənpərvərlik mahnıları oxuyublar.

Məlumat üçün bildirək ki, Vətən müharibəsi şəhidi Samir Allahverdiyev 2001-ci il iyunun 7-də Lənkəran şəhərində dünyaya göz açıb. İkinci Qarabağ döyüşləri başlanan gündə odun-alovun içinə atılan, qəhrəmancasına savaşan Samir Qubadlı rayonunda şəhidlik zirvəsinə ucalıb. Vətən sevdalısı ölümündən sonra "Vətən uğrunda" və digər medallarla təltif edilib.

* * *

Masallı rayonunda gənclərin sağlam həyat tərzi keçirməsi üçün tez-tez müxtəlif idman yarışları təşkil edilir. Növbəti belə yarışlardan biri Masallı Taekvondo Mərkəzində 15 iyun - Milli Qurtuluş Gününə həsr olunmuş taekvondo idman növü üzrə rayon birinciliyi olub. Rayon Gənclər və İdman İdarəsinin, Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının birgə təşkilatçılığı hesabına ərsəyə gələn, uşaqlar və yeniyetmələr arasında gərgin idman mübarizəsi şəraitində keçən yarış iki gün davam edib. Yarışda oğlan və qızlardan ibarət 15 çəki dərəcəsində 73 nəfərə yaxın idmançı qüvvəsini sınayıb.



Birincilikdə qalib gələn idmançılar təşkilatçılar tərəfindən diplom və medallarla təltif olunublar.

*Zəfər Orucoğlu,*
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

# Şirvan şəhərində paralimpiya hərəkatının inkişaf etdirilməsinə dair işlər davam etdirilir

Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin prezidenti İlqar Rəhimov Şirvan şəhər Uşaq-Gənclər İdman-Şahmat məktəbinin stolüstü tennis bölməsinin baş məşqçisi Anar Abdullayev və məktəbin boks bölməsinin baş məşqçisi Qalib Cahangirovu qəbul edib.

Milli Paralimpiya Komitəsinin prezidenti İlqar Rəhimov bildirib ki, regionlarda əlilliyi olan şəxslərin idmana cəlb edilməsi məqsədi ilə müxtəlif şəhər və rayonlarda Komitənin işləri davam etdirilir. Azərbaycanın müxtəlif bölgələrindən olan idmançılar Paralimpiya, dünya və Avropa çempionu adını qazanıblar.

İ.Rəhimov Şirvan şəhərində də bu istiqamətdə işlərin görüldüyünü qeyd edib. Komitə prezidenti bildirib ki, Şirvan şəhərində yaşayan əlilliyi olan şəxslərin, xüsusilə Vətən müharibəsi qaziləri, sağlamlıq imkanları məhdud uşaqların idmana cəlb edilməsi ilə bağlı mütamadi olaraq müxtəlif tədbirlər və görüşlər keçirilir. İ.Rəhimov cari ilin may ayında keçirilmiş Uşaq Paralimpiya kubokunda Şirvan şəhərini təmsil edən sağlamlıq imkanları məhdud uşaqların göstərdiyi uğurlu nəticələri ilə əlaqədar məktəb məşqçilərini təbrik edib.

Şirvan şəhər Uşaq-Gənclər İdman-Şahmat məktəbinin məşqçiləri öz növbələrində şəhərdə paralimpiya hərəkatının inkişaf etdirilməsinə dair görülmüş işlər və gələcək fəaliyyət barədə geniş məlumat veriblər. Qeyd edilib ki, bölgədə əlilliyi olan şəxslərin idmana cəlb edilməsi məqsədi ilə bundan sonra da müxtəlif tədbirlər həyata keçiriləcək.

# Şəhər birinciliyinin qalibləri müəyyənləşib

İyunun 4-5-də Sumqayıt Olimpiya İdman Kompleksində ağırlıqqaldırma üzrə 2005-ci il və daha kiçik təvəllüdlü oğlan və qızlar arasında şəhər birinciliyi keçirilib. Sumqayıt şəhər Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə keçirilən yarışda 30 nəfərdən çox idmançı qalib adı uğrunda mübarizə aparıb. Gərgin idman mübarizəsi şəraitində davam edən yarışda Zəhra Niftəliyeva (64 kq), Arzu Qədimova (71 kq) qızlar arasında, İbrahim Rəsulzadə (40 kq), Turan Abbasov (45 kq), Fərman Məhərrəmov (49 kq), Azər Mənsimov (55 kq), Turan Əliyev (61 kq), Fərid Mərdanov (67 kq), Fuad Qədimov (73 kq), Cavidan Muxtarlı (81 kq) və Rəbbani Niftəliyev (89 kq) oğlanlar arasında fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Yarışın qalib və mükafatçıları şəhər Gənclər və İdman Baş İdarəsinin fəxri fərman, medal və hədiyyələri ilə təltif olunublar.





# Gənc badmintonçular ölkə birinciliyində yarışıblar

1 nömrəli idman liseyində 2004-2005-ci illər təvəllüdlü gənclər arasında badminton üzrə Azərbaycan birinciliyinə yekun vurulub. 30-dan çox badmintonçunun iştirak etdiyi birincilikdə 5 kateqoriya üzrə qaliblər müəyyənləşib.

Şəxsi yarışlarda Aqil Qəbilov və Həcər Nuriyeva birinci olublar. Qoşa yarışlarda isə Rəvan Niftəliyev, A.Qəbilov və Əminə İsmayılova, H.Nuriyeva qızıl medal qazanıblar. Qarışıq qoşa yarışlarda Aqil Qəbilov - Nigar Səmədova cütlüyü fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Azərbaycan Badminton Federasiyası və Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə Milli Olimpiya Komitəsinin 30 illiyinə həsr olunan respublika birinciliyinin mükafatçıları diplom və medallarla təltif olunublar.

# Qaxda mini futbol turniri təşkil olunub





AFFA-nın təşkilatçılığı ilə Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə Qaxda festival xarakterli mini futbol turniri keçirilib. Qax şəhər stadionunda keçirilən mini futbol turnirində 8 komanda iştirak edib və ümumilikdə 80-dən çox uşaq cəlb olunub. Turnirdə iştirak edən komandaların hər bir üzvünə AFFA tərəfindən hədiyyələr verilib.

Qeyd edək ki, Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunmuş növbəti futbol festivalı Balakəndə keçirilib.

# FUTBOL



## “Kəpəz” və “Turan-Tovuz” Premyer Liqaya qayıdır

AFFA-nın İcraiyyə Komitəsinin növbəti iclası keçirilib. Aparılmış müzakirələrdən sonra AFFA-nın Yoxlama və Təftiş Komitəsinin Əsasnaməsi təsdiq olunub. Komitənin sədri vəzifəsi 3 ay müddətinə Xalid Cavadova həvalə edilib. Bu müddət başa çatdıqdan sonra tərəflərin qarşılıqlı razılığı əsasında müqavilə 2024-cü ilin martına qədər uzadıla biləcək.

İclasda Azərbaycan Premyer Liqasının 2022/2023-cü il mövsümünün 10 komandanın iştirakı ilə keçirilməsi barədə qərar qəbul olunub. Müvafiq lisenziya almış “Kəpəz” və “Turan-Tovuz” klublarının Premyer Liqada iştirakı təsdiqlənib.

2022/2023-cü il mövsümündə Azərbaycan Premyer Liqasında legioner limiti 7+4 (7 əcnəbi, 4 yerli futbolçu) sistemi ilə tətbiq olunacaq.

Beynəlxalq təcrübə, UEFA-nın milli komandalar və klub yarışlarında tətbiq olunan qaydalar nəzərə alınaraq, Azərbaycan Premyer Liqasında 2022/2023-cü il mövsümündən etibarən oyunlarda 5 əvəzetməyə icazə veriləcək. Meydanı tərk edən futbolçuların əvəzinə oyuna daxil olan minimum 2 oyunçu yerli statuslu futbolçu olmalıdır.

İclasda Naib Əsədov AFFA-nın İntizam Komitəsinə üzv təyin edilib. Veteran futbolçular Məlik Həsənov, Xanoğlan Abbasov, Əli Hüseynov və Boris Tibilova AFFA-nın təqaüdünün verilməsi qərara alınıb.

İclasın sonunda İcraiyyə Komitəsinin üzvü, “Şamaxı” futbol klubunun Müşahidə Şurasının sədri Zaur Axundov işlərinin çoxluğu, Şamaxı şəhərinə gediş-gəliş üçün məsafə ilə əlaqədar vaxt məhdudiyyətini nəzərə alaraq klubda tutduğu vəzifədən istefa verdiyini bildirib. O, Azərbaycan Futzal Federasiyasının prezidenti vəzifəsində fəaliyyətini davam etdirəcəyini qeyd edib.

## Uels 64 ildən sonra dünya çempionatına vəsiqə qazandı

Qətərdə keçiriləcək futbol üzrə 2022-ci il dünya çempionatına Avropa zonasından son vəsiqənin sahibi müəyyənləşib. Uels yığması 64 ildən sonra bu hüquqa yiyələnib. Robert Peycin baş məşqçi olduğu kollektiv pley-off mərhələsinin final qarşılaşmasında Ukraynaya qalib gəlib - 1:0. 34-cü dəqiqədə Ukrayna millisinin futbolçusu Andrey Yarmolenko avtoqol müəllifi olub.




Qeyd edək ki, Uels millisi ilk və sonuncu dəfə 1958-ci il dünya çempionatında mübarizə aparıb. Həmin vaxt bu komandaya 1/4 finalda Braziliya yığması 1:0 hesablı qələbə ilə mane olub.

Uels yığması dünya çempionatında B qrupunda mübarizə aparacaq. Komandanın rəqibləri İngiltərə, İran və ABŞ olacaq.

Beləliklə, Uels yığmasından sonra DÇ-də iştirak edən yığmaların sayı 30-a çatıb. Qalan iki komandadan biri iyunun 14-də keçiriləcək Kosta-Rika - Yeni Zelandiya cütünün qalibi olacaq. Digər yığmaya gəldikdə, əvvəlcə iyunun 7-də Qətərdə BƏƏ və Avstraliya arasında pley-off matçı keçiriləcək. Görüşün qalibi isə iyunun 13-də eyni ölkədə Peru ilə üz-üzə gələcək. Məhz bu qarşılaşmanın qalibi mundiala yüksələcək.

Dünya çempionatı noyabrın 21-dən dekabrın 18-dək Qətərdə təşkil olunacaq.

## “Qarabağ” yarımmüdafiəçisi ilə yollarını ayırdı

Ağdamın “Qarabağ” futbol klubu yarımmüdafiəçisi Xayme Romero ilə yollarını ayırıb. Bu barədə Ağdam klubunun mətbuat xidməti məlumat yayıb. İspaniyalı futbolçunun başa çatan müqaviləsinin müddəti uzadılmayıb.

Romeroya göstərdiyi xidmətlərinə görə təşəkkür edilib və uğurlar arzulanıb.

## “Qəbələ” klubu millinin qapıçısı ilə müqavilə imzaladı

Transfer çalışmalarını davam etdirən “Qəbələ” klubu heyətinə daha bir futbolçu cəlb edib. Daha əvvəl İlkin Qırtımovu sıralarına cəlb edən “Qəbələ” Azərbaycan millisinin qapıçısı Səlahət Ağayevin keçidini rəsmiləşdirib. 31 yaşlı qolkiperlə birillik müqavilə imzalanıb.

Son klubu “Sabah” olan S.Ağayev 2021-2022-ci il mövsümünü paytaxt təmsilçisində keçirib. Qapıçı bunadək Premyer Liqada “İnter”, MOİK, “Sumqayıt” və “Neftçi”nin formasını geyinib. 2010-cu ildə Azərbaycan millisinin heyətində debüt edən qapıçı yığmada 21 oyun keçirib.




## Ağır məğlubiyyətin acı sonluğu

Futbol üzrə Bolqarıstan millisinin baş məşqçisi Yasen Petrov istefa verib. 54 yaşlı mütəxəssis Gürcüstan yığmasına 2:5 hesabı ilə uduzduqları UEFA Millətlər Liqasının qrup mərhələsinin II tur oyunundan sonra postundan ayrıldığını açıqlayıb. Petrov komandada



qalmağa haqqının olmadığını və bütün məsuliyyəti öz üzərinə götürdüyünü bildirib.

Qeyd edək ki, Bolqarıstan seçməsi ilk turda Şimali Makedoniya ilə heç-heçə edib - 1:1. Yasen Petrov 2021-ci ilin yanvarında millinin sükanı arxasına keçib.

## Sumqayıt və Qubada treninqlər təşkil olunub

2022/2023-cü il mövsümünə hazırlıqla əlaqədar oğlanlar, qızlar, həvəskarlar, Region Liqası və futzal liqalarındakı komandaların nümayəndələri və onlayn qeydiyyatını aparacaq şəxslərlə görüşlər keçirilib. İlkin treninqlər Sumqayıtda və Qubada təşkil olunub. Görüşlərdə yeni mövsüm üçün qeydiyyatın başlanması və son tarixləri, qeydiyyat zamanı yeni tətbiq ediləcək sənəd (azyaşlı həvəskar futbolçu təlim müqaviləsi), dəyişən qeydiyyat qaydaları və “Futbola Qoşul” onlayn qeydiyyat platformasında yeni tətbiq ediləcək “Yarışların idarəetmə sistemi” bölməsi haqqında məlumat verilib.

“Yarışların idarəetmə sistemi” “Futbola Qoşul” onlayn qeydiyyat sistemi ilə vahid bir platforma üzərində sinxronlaşdırılıb. Yeni sistem futbol idarəetməsinin müxtəlif sahələrində müasir rəqəmsal idarəetmə üsullarının tətbiqini davam etdirmək və təkmilləşdirmək imkanları verəcək.

Qeyd edək ki, “Yarışların idarəetmə sistemi”nin tam tətbiqi 2023/2024-cü il mövsümündən nəzərdə tutulur.

## “Araz-Naxçıvan” Azərbaycan çempionu oldu

Sayca 28-ci ölkə çempionatının qalibi olan “Araz-Naxçıvan” futzal klubu 16-cı dəfə hamıdan güclü olub. 2020-2021-ci ildə çempionat keçirilməyib və İcraiyyə Komitəsinin qərarı ilə bir il əvvəlki çempion - “Araz-Naxçıvan” UEFA Çempionlar Liqasında ölkəmizi təmsil edib. Naxçıvan təmsilçisindən sonra iki komanda 3 dəfə ölkə çempionu titulunu qazanıb. Söhbət “Avtomobilçi” və “Turan AİR”dən gedir. İlk çempion isə “Nicat” olub.

“Araz-Naxçıvan” ardıcıl 10 dəfə çempion olduqdan sonra seriyanı “Khazar Islands” qırıb. İlk çempionat 1993-cü ildə keçirilib.

## Bir cümlə, bir xəbər

- İtaliyanın “Milan” və “Napoli” komandalarının sabiq baş məşqçisi Cennaro Qattuzo yeni mövsümdən etibarən “Valensiya”da işləyəcək.

- İngiltərənin “Çelsi” komandasından ayrılan Antonio Rüdiger Madrid “Real”ı ilə 4 illik müqavilə bağlayıb.

- Pley-off mərhələsinin finalında “Bandırmaspor”la qarşılaşmada 2:1 hesablı qələbə qazanan “İstanbulspor” “Ankaragücü” və “Ümraniyespor”dan sonra növbəti mövsüm üçün Türkiyə Superliqasına vəsiqə əldə edib.

- Niderland millisinin sabiq hücumçusu Dirk Küyt ölkəsinin 2-ci liqa təmsilçisi “Den Haaq”ın baş məşqçisi təyin olunub.



- Futbol üzrə son Avropa çempionu İtaliya millisi və Amerika Kubokunun son qalibi Argentina yığması arasında “Finalissima” oyununda 0:3 hesabı ilə uduzub.

- Yeni mövsümdən etibarən “Fənərbaxça”nın yeni baş məşqçisi “Benfika”dan gələn Jorje Jesus olacaq.

- “Mançester Yunayted” klubu ingiltərəli Cessi Linqard və fransalı Pol Poqba ilə yollarını ayırıb.

- “Bavariya” fransalı yarımmüdafiəçi Korenten Tolisso ilə başa çatan müqavilə yenilənməyib.

- “Liverpul” yarımmüdafiəçi Ceyms Milnerlə yeni müqavilə imzalayıb, Sadio Maneni “Bavariya”ya satmaqdan imtina edib.

- Braziliya millisinin sabiq futbolçusu Ronaldo səhmlərinə sahib olduğu “Valyadolid”in İspaniya La Liqasına yüksəlməsi səbəbindən 500 km-lik velosiped yürüşünə çıxıb.



# Dünya–idmanı

## Həftəlik idman qoroskopu

**Qoç**
Qoçun gücü hər bir idman növündə uğura təminat verir. Bu bürcdən olan insanlar mütəmadi idmanla məşğul olmalıdırlar.

**Buğa**
Buğalar əla hücumçudurlar. Onlar kapitan olmasalar da, komandanı arxalarınca aparırlar.

basketbol, velosiped, tennis növləri ilə məşğul olsanız, yaxşı olar. Səhər qaçışı da sizin xeyrinizədir.

**Əqrəb**
Əqrəblər gözləməyi və qalib gəlməyi bacarırlar. Onlar nadir hallarda yarışdan məğlub çıxırlar.



Heç vaxt geri baxmırlar. Hər zaman uğur onlarladır.

**Əkizlər**
Məşqlərinizi gücləndirin. Sizi qarşıda böyük uğurlar gözləyir. Yarışda qarşınıza qoyduğunuz məqsədə çatacaqsınız.

**Şir**
Şirlər həyatda olduğu kimi, idmanda da liderdirlər. Daim formada olmaq onların idman prinsipidir.

**Xərçəng**
Xərçənglər idmandan bir az kənar gəzsələr, yaxşı olar. Bu həftə sizin üçün uğur gözlənilmir.

**Qız**
Aqressiv olsanız da, ağıllısınız. Fikrinizi digər işlərə sərf etməyin. Çünki şəxsi problemləriniz idmanda qazanacağınız nailiyyətlərə mane olmamalıdır.

**Tərəzi**
Özünüzü çox yaxşı və yüngül hiss edəcəksiniz. İdman rəqsləri,

**Oxatan**
Oxatanlar hər zaman komandaya müsbət enerji bəxş edirlər. Bu bürc altında doğulanlara səhər qaçışı ilə məşğul olmaq məsləhət görülür.

**Oğlaq**
Bu, sizin həftənizdir. Hansı yarışda iştirak etsəniz, oradan qalib çıxacaqsınız. Amma bu, o demək deyil ki, məşq etməməlisiniz.

**Dolça**
Səhhətinizə fikir verin, gərgin məşqlər etməyin. Bu, sağlamlığınıza xələl gətirə bilər. Təbiətin qoynunda istirahət əsəblərinizə də müsbət təsir göstərər.

**Balıqlar**
Balıqlar təklikdə məşq etməyi xoşlasalar da, bu həftə komanda yoldaşları ilə birlikdə məşq etməli olacaqlar. Onlar həyatda olduğu kimi, idmanda da ideal insandırlar.




*“Olimpiya dünyası” qəzetinin arxivindən*
(“Olimpiya dünyası” qəzetinin keçirdiyi I Bakı Beynəlxalq Karikatura Müsabiqəsindən)

# olimpnews.az – sizin saytınız




### Üfüqi

**1.** Yan xətt hakimi. **3.** Ay (yerin yeganə təbii peyki) planetində oynanılan idman növü. **6.** İdman portalı. **7.** Hokkey üzrə dünya çempionatına ev sahibliyi edəcək ölkə. **8.** Veteran futbolçu Səməd Qurbanovun ləqəbi. **9.** Britaniyalı boksçu ...Lüis. **13.** İspaniyalı tennis ulduzu. **14.** Snoubord yarışlarında məsafə, kütləvi enmə. **16.** Sumo çempionu. **18.** Qılıncoynatmada silah.

### Şaquli

**2.** İtaliyalı əfsanəvi qapıçı. **4.** NBA klubu. **5.** Topu komanda yoldaşına ötürmək. **10.** Cüdoda fənd. **11.** Şahmat kompoziyasında termin. **12.** İki nəfərlik velosiped. **15.** Azərbaycan... Federasiyası. **17.** Əfsanəvi futbolçu, niderlandlı baş məşqçi.




## “Roland Garros”da çempionluq 14-ə çatdı

İspaniyalı tennisçi Rafael Nadal on dördüncü dəfə Roland Garros (Fransa açıq çempionatı) turnirinin qalibi olub. Turnirin favoriti sayılan Rafael Nadal finalda norveçli rəqibi Kasper Ruud üzərində inamlı qələbə qazanıb - 6:3, 6:3, 6:1. Bu, ispaniyalı tennisçinin “Böyük dəbilqə” seriyasından iyirmi ikinci, o cümlədən “Roland Garros” turnirində on dördüncü qələbəsidir. O, iki dəfə Australian Open, iki dəfə Uimbldon, dörd dəfə isə US Open turnirində qalib gəlib.

Otuz altı yaşlı Rafael Nadal “Böyük dəbilqə” turnirlərində qazandığı qələbələrin sayına görə dünya rekordçusudur.



## “Dəmir Mayk”dan Makqreqora məsləhət

Boks üzrə ağır çəkidə keçmiş dünya çempionu Mayk Tayson qarışıq döyüş (MMA) ustası irlandiyalı Konor Makqreqora məsləhət verib. 55 yaşlı keçmiş boksçu “Ultimate Fighting Championship” (UFC) turnirinə qayıtdıqdan sonra Makqreqorun perspektivlərindən danışıb.

“Dəmir Mayk” uzun fasilədən sonra çətin döyüşlərdən qaçmağın vacibliyinə inandığını qeyd edib. O, Makqreqora bir neçə qələbə qazanmağı və yalnız bundan sonra ciddi rəqiblərlə döyüşə keçməyi tövsiyə edib.

Qeyd edək ki, Makqreqor 2021-ci ilin yayından bəri döyüşmür.


Olimpiya dünyası

Baş redaktorun müavini: A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168
AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet “Olimpiya dünyası”nın kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.



DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən “Olimpiya dünyası”na istinad etmək zəruridir.



*E-mail:* olimpiya_dunyasi@mail.ru
*Ünvan:* Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-74-19